01 (1307) 11-17 yanvar 2024-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## “AZƏRBAYCAN-BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ ƏMƏKDAŞLIĞI ÇOXŞAXƏLİDİR”



“Əməkdaşlığımız çoxşaxəlidir, bir çox sahələri əhatə edir və yaxın keçmişdə enerji sahəsində, xüsusilə yaşıl enerji sahəsində çox önəmli addımlar atılmışdır”.

Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə geniş tərkibdə görüşündə bildirib.

Ötən ilin oktyabrında Azərbaycanda 230 meqavat gücündə günəş elektrik stansiyasının açılışının olduğunu xatırladan dövlətimizin başçısı deyib: *“Bu stansiyanın yaradılması ölkənizin investisiyaları hesabına mümkün olmuşdur. Bu, sadəcə olaraq, birinci addımdır”.* Prezident İlham Əliyev əlavə edib ki, imzalanmış kontraktlar və anlaşma memorandumları əsasında Birləşmiş Ərəb Əmirliklərinin sərmayələri hesabına Azərbaycanda 10 qiqavat yaşıl enerji istehsalı nəzərdə tutulur.

## “Bu səfər Azərbaycan ilə BƏƏ arasında strateji tərəfdaşlığı möhkəmləndirəcək”

“Keçən ay Bakıda daha iki önəmli sənəd imzalanmışdır. Onlardan biri - Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında imzalanmış sənəd əsasında bir milyard dollarlıq maliyyə imkanı olan Birgə İnvestisiya Fondu yaradıldı. İkinci önəmli sənəd informasiya-kommunikasiya sektoruna aiddir”. Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə geniş tərkibdə görüşündə söyləyib.

Birləşmiş Ərəb Əmirliklərinin Prezident Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın rəhbərliyi ilə çox böyük uğurlara imza atdığını vurğulayan dövlətimizin başçısı onun Azərbaycana səfərinin iki ölkənin strateji tərəfdaşlığını möhkəmləndirəcəyinə, xalqlarımız arasındakı dostluq, qardaşlıq münasibətlərini daha da gücləndirəcəyinə əminliyini ifadə edib.

## “İki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişafına hazırıq”

“Birləşmiş Ərəb Əmirliklərində iki ölkə arasında, iki ölkənin və iki xalqın rifahı və çiçəklənməsi naminə müxtəlif sahələrdə əməkdaşlığın inkişafına hazırıq”. Bu sözləri Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə geniş tərkibdə görüşündə deyib.

*“Qeyd etdiyiniz kimi, münasibətlərimizin inkişafı öz başlanğıcındadır. Biz də öz növbəmizdə ölkələrimiz arasında münasibətlərin daha da gücləndirilməsi və yeni körpülərin yaradılması istiqamətində səylərimizi səfərbər edirik”*, - deyə BƏƏ Prezidenti əlavə edib.

## RƏSMİ BAKIDAN FRANSANIN ƏSASSIZ İDDİALARINA REAKSİYA

Fransa vətəndaşının əsassız olaraq tutulduğu barədə Fransanın Avropa və Xarici İşlər Nazirliyinin iddialarının heç bir əsası yoxdur. Bu əsassız bəyanat reallığın təhrif olunması, Azərbaycanın daxili işlərinə və qanuni təhqiqat prosesinə növbəti müdaxilə cəhdidir.

Trend xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Fransanın Avropa və Xarici İşlər Nazirliyinin Fransa vətəndaşının tutulması ilə əlaqədar Azərbaycan əleyhinə açıqlaması ilə bağlı yerli mətbuatın sualına cavabında deyilir.

Qeyd edilib ki, Fransa Respublikasının vətəndaşı Martin Rian 4 dekabr tarixində Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 276-cı maddəsində (casusluq) nəzərdə tutulmuş əməlin törədilməsində şübhəli bilinərək saxlanılıb: *“Daha sonra, onun barəsində məhkəmə qərarı ilə 4 ay müddətinə həbs qətimkan tədbiri seçilib.*

*Azərbaycan tərəfi sözügedən Fransa vətəndaşı barəsində tədbirlər görərkən milli qanunvericiliyə və beynəlxalq öhdəliklərə tam olaraq əməl edib. Şübhəli bilinən şəxs tutulandan etibarən Fransa səfirliyinin konsulluq əməkdaşları ona bir neçə dəfə baş çəkib və onlar cinayət işindən tam məlumatlıdırlar.*

*Bundan əlavə, Azərbaycan Xarici İşlər Nazirliyinin qeyd edilən şəxsin Fransa səfirliyinin iki əməkdaşı ilə işbirliyi ilə bağlı məsələnin araşdırılması məqsədilə Fransanın Azərbaycandakı səfirliyinə verbal nota ünvanlamasına baxmayaraq, Fransa tərəfi hər hansı bir izahat verməkdən və istintaqda əməkdaşlıqdan imtina edib. Bununla əlaqədar, səfirliyin bu iki əməkdaşı Azərbaycan tərəfindən arzuolunmaz şəxs elan ediliblər.*

*Biz bir daha, Fransa tərəfini Azərbaycanın daxili işlərinə və qeyd olunan təhqiqat tədbirlərinə müdaxiləni dayandırmağa şiddətlə çağırırıq”.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ MÜRACİƏTİ



- *Əziz həmvətənlər.*

2023-cü il arxada qalır. 2023-cü ildə ölkəmizin həyatında bir çox önəmli hadisələr baş vermişdir. Ancaq o hadisələrin arasında dövlət suverenliyimizin bərpası Azərbaycan xalqının yaddaşında əbədi qalacaqdır. 2023-cü ildə birgünlük antiterror əməliyyatı nəticəsində Azərbaycan öz dövlət suverenliyini tam bərpa etmişdir, işğalçı qüvvələrin Azərbaycan ərazisindən çıxarılması təmin edilmişdir, düşmən ordusu məhv edilmiş, düşmənin hərbi texnikası məhv edilmiş və ya qənimət kimi götürülmüşdür. Bu tarixi hadisə münasibətilə bir daha bütün Azərbaycan xalqını ürəkdən təbrik etmək istəyirəm. *2020-ci ildə İkinci Qarabağ müharibəsi başa çatanda bizim Bayrağımız Şuşada və azad edilmiş digər ərazilərdə qaldırılanda biz hamımız yaxşı bilirdik ki, işimiz yarımçıq qalıb. Azərbaycan öz dövlət suverenliyini tam bərpa etməli idi və bunu etdi.* Üç il ərzində biz bunu sülh yolu ilə həll etmək istəyirdik. Hesab edirdik ki, Ermənistan rəhbərliyi İkinci Qarabağ müharibəsinin nəticələrini düzgün təhlil edərək özü üçün nəticə çıxaracaq. Əfsuslar olsun ki, bu, belə olmadı. Üç il ərzində Ermənistan öz üzərinə götürdüyü öhdəlikləri nəinki yerinə yetirmədi, hətta əksinə, bizə qarşı yeni hərbi təxribatlar hazırladı və onları həyata keçirdi. Qanunsuz olaraq torpağımızda məskunlaşmış 15 minlik Ermənistan ordusu Qarabağdan çıxarılmadı. Əksinə, yeni silahlar, sursatlar, hərbi texnika, minalar Qarabağa gətirildi və bizə qarşı mina terroru davam etdirildi.

Təbii ki, biz bu vəziyyətlə barışa bilməzdik. Dəfələrlə Ermənistan rəhbərliyinə və onun arxasında dayanmış Qərb ölkələrinə xəbərdarlıq etmişdik ki, bu vəziyyət davam edə bilməz. Ya separatçı rejim özünü buraxmalıdır, Ermənistan ordusu bizim ərazimizdən çıxarılmalıdır, ya da ki, biz güc tətbiq edərək dövlət suverenliyimizi özümüz bərpa edəcəyik. Əfsuslar olsun ki, bizim sözümüzə diqqət yetirilmədi. *Sentyabrın 19-da başlamış və cəmi bir gün, ondan da az davam edən antiterror əməliyyatı Azərbaycan Ordusunun tam Zəfəri ilə nəticələnmişdir. Separatçı rejim çökmüş, bizim qarşımızda diz çökmüş, ağ bayraq qaldırmış, təslim olmuş, torpaqlarımızdan əbədi olaraq çıxarılmış və tarixin zibilxanasına atılmışdır. Bununla Azərbaycanda separatizmin kökü kəsildi və separatizm - bu bəla bizim torpağımızda bir daha baş qaldıra bilməz.*

Azərbaycan Ordusu bir daha peşəkarlıq, qəhrəmanlıq, əsgər və zabitlərimiz fədakarlıq göstərmişlər. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq. Onu bildirməliyəm ki, şəhidlərimizin qanı yerdə qalmadı. Həm Birinci, həm İkinci Qarabağ müharibəsi, həm antiterror əməliyyatı zamanı şəhid olmuş əsgər, zabitlərimizin, mülki şəxslərin, Xocalı qurbanlarının qisası döyüş meydanında alınmışdır.

2023-cü ilin aprel ayında isə biz ərazi bütövlüyümüzü tam bərpa etmişdik. Azərbaycan-Ermənistan sərhədinin Laçın istiqamətində sərhəd-buraxılış məntəqəsi qurulmuş və o gündən bəri Azərbaycanın ərazi bütövlüyü tam bərpa edilmişdir. Azərbaycan xalqı yaxşı xatırlayır ki, dünyada, xüsusilə Qərb ölkələrində Ermənistanın arxasında dayanan, onlara daim dəstək göstərən ölkələrdə nə qədər hay-küy qaldırılmışdı, bizə qarşı əsassız ittihamlar irəli sürülmüşdü. Heç bir ittiham, heç bir təzyiq bizim iradəmizə təsir edə bilmədi. Mən o vaxt da demişdim ki, heç kim bizim iradəmizə təsir edə bilməz. Biz haqq yolundayıq, öz sərhədimizi özümüz nəzarətə götürmüşük və heç kimə imkan verməzik ki, bizim torpağımızda at oynatsın. Bu, bizim torpağımızdır, bu torpağın sahibi bizik, nə lazım biliriksə, onu da edəcəyik, beynəlxalq hüquq çərçivəsində, o cümlədən beynəlxalq humanitar hüquq çərçivəsində. O da dərs olmadı işğalçılara, o da dərs olmadı onların arxasında dayanan anti-Azərbaycan qüvvələrə. Ona görə sentyabr ayında keçirilmiş antiterror əməliyyatı labüd idi və biz bunu keçirdik, bununla da fəxr edirik, qürur hissi keçiririk. Hər bir Azərbaycan vətəndaşı, dünyada yaşayan hər bir azərbaycanlı haqlı olaraq qürur hissi keçirir.

Qarabağ və Şərqi Zəngəzur bu gün böyük tikinti meydançasına çevrilmişdir. Biz şəhərlərimizi, kəndlərimizi yenidən qururuq və artıq bu il 5 minə yaxın keçmiş köçkün öz doğma torpaqlarına qayıtmışdır. Bu ilin mart ayında - Novruz bayramı ərəfəsində Talış kəndində bayram sevinci yaşandı, köçkünlər öz doğma evlərinə qayıtmışdılar. *Avqust ayında Füzuli şəhəri və Zabux kəndi bayram içində idi. Bu il Laçın şəhərinə Müstəqillik Gününü qeyd edərkən köçkünlər qayıtmışdır - 28 May tarixində Laçında böyük bayram günü idi. Ondan əvvəl, bildiyiniz kimi, Ağalı kəndində köçkünlər məskunlaşmış və beləliklə, beş yaşayış məntəqəsində indi həyat bərpa edilib.*

Onu da bildirməliyəm ki, 2024-cü ildə bir neçə yaşayış məntəqəsinə keçmiş köçkünlər, qaçqınlar qayıdacaqlar. Bu müjdəni mən bu gün onlara vermək istəyirəm və bildirmək istəyirəm ki, il ərzində Kərkicahan, Malıbəyli, Turşsu kəndləri tam bərpa edilib keçmiş köçkünlərin sərəncamına veriləcək. Eyni zamanda, il ərzində Xocalı və Xankəndi sakinləri də öz evlərinə qayıdacaqlar. *Bundan başqa, bir neçə yaşayış məntəqəsi də keçmiş köçkünləri qəbul etməyə hazır olacaq. Biz - bu torpaqların sahibləri qurub-yaradanıq. Biz qurub-yaradan xalqıq.* Ermənilər 30 il ərzində bizim torpaqlarımızı dağıdaraq bütün evləri, tarixi binaları, məscidlərimizi yerlə-yeksan etmiş, bizə qarşı soyqırımı, eyni zamanda, urbisid, ekosid törətmişlər.

(davamı 2-ci səhifədə)

# MSK-da prezident seçkilərinə namizədlərin qeydə alınması məsələsinə baxılıb



Məzahir Pənahovun sədrliyi ilə yanvarın 9-da Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.

Sonra fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası tərəfindən irəli sürülmüş Qüdrət Müzəffər oğlu Həsənquliyevin, namizədliyi Böyük Quruluş Partiyası tərəfindən irəli sürülmüş Fazil Qəzənfər oğlu Mustafanın, namizədliyi Böyük Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş Elşad Nəbi oğlu Musayevin və namizədliyi özü tərəfindən irəli sürülmüş Fuad Ağasi oğlu Əliyevin namizədliyinin qeydə alınması məsələsinə baxılıb. Proseslərin gedişi barədə ətraflı məlumat verilərək bildirilib ki, sözügedən namizədlərin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələri və onlara əlavə edilməli olan sənədlər səlahiyyətli nümayəndələri tərəfindən Mərkəzi Seçki Komissiyasına təqdim edildikdən sonra seçki qanunvericiliyində nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparılıb, namizədlərin qeydə alınması üçün əsasların olması müəyyən edilib.

Komissiya geniş müzakirələrdən sonra namizədliyi Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası tərəfindən irəli sürülmüş Qüdrət Müzəffər oğlu Həsənquliyevin, namizədliyi Böyük Quruluş Partiyası tərəfindən irəli sürülmüş Fazil Qəzənfər oğlu Mustafanın, namizədliyi Böyük Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş Elşad Nəbi oğlu Musayevin və namizədliyi özü tərəfindən irəli sürülmüş Fuad Ağasi oğlu Əliyevin fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizəd kimi qeydə alınmasına qərar verib.

# Perinatal Mərkəzdə yangından sonra 60 körpə təxliyə edilib

Respublika Perinatal Mərkəzində yanğın hadisəsindən sonra TƏBİB tərəfindən dərhal təxliyəyə başlanılıb və 60 uşaq təxliyə edilib.

Bu barədə jurnalistlərə açıqlamasında TƏBİB-in icraçı direktorunun müavini Anar İsrafilov deyib.

*"Onların vəziyyəti stabildir. Vəziyyəti ağır olanlar vaxtından öncə doğulanlardır. Uşaqlar TƏBİB tabeliyindəki 6 tibb müəssisəsinə təxliyə olunub. Həmin uşaqların yanıq və tüstüdən boğulma diaqnozları yoxdur"*, - deyə o, əlavə edib.

O, qeyd edib ki, Respublika Perinatal Mərkəzi 3-cü səviyyəli doğum tibb müəssisədir: *"Buradakı körpələr ya vaxtından əvvəl, ya da yanaşı patologiya ilə doğulanlardır. Təxliyə ilə bağlı hansısa ağırlaşma olmayıb"*.



Yanğın nəticəsində 3 nəfər tüstüdən zəhərlənmə səbəbilə Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsinə hospitalizasiya olunub. Onlara zəruri tibbi xidmətlər göstərilib, vəziyyətləri stabildir, ambulator müalicə üçün evə buraxılmaları nəzərdə tutulub. Mərkəzin Yenidoğulmuşların intensiv terapiya şöbəsində müalicə alan 4 uşağın meyiti aşkar olunub. Fakta görə Baş Prokurorluğun İstintaq idarəsində Cinayət Məcəlləsinin 225.3 (yanğın təhlükəsizliyi qaydalarını pozma ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda) və 314.3-cü (səhlənkarlıq iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddələrilə cinayət işi başlanıb.

# Astaraçay körpüsü MDB və Şərqi Avropa ölkələrinin körfəzə çıxışını təmin edəcək

***"İran ilə Azərbaycan arasındakı Astaraçay üzərində salınan yeni körpü MDB və Şərqi Avropa ölkələrinin körfəzə və Oman dənizinə çıxışını təmin edəcək".***

Bu sözləri İranın yol və şəhərsalma nazirinin müavini Xeyrulla Xademi Proqram və Büdcə Planlaşdırılması İdarəsində keçirilən iclasda deyib. O bildirib ki, 138 kilometrlik Qəzvin-Rəşt avtomobil yolunda işlərin 95 faizi yerinə yetirilib: "Yolun tamamlanması üçün qalan 8,2 kilometrlik məsafədə isə tikinti işləri davam edir. Bu yol İranın mərkəzi və cənub regionları ilə Azərbaycan və Rusiyanın regionları arasındakı ticarət əlaqələrini genişləndirəcək".

Qəzvin-Rəşt avtomobil yolunu Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin mühüm hissəsi kimi dəyərləndirən X.Xademi bildirib ki, yeni yol və həyata keçirilən tranzit yükdaşımalar İran ilə qonşuları arasında ticarət dövriyyəsinin artmasına səbəb olacaq.



*(əvvəli 1-ci səhifədə)*

Bizim çaylarımız zəhərləndi, bizim meşələrimiz qırıldı. Bütün bunları edən Ermənistan dövləti idi. Əfsuslar olsun ki, bu cinayətlərə görə onlar bu günə qədər Qərbdə qınaq obyektinə çevrilmədi.

***Bu gün Qərbdə ikili standartlar hökm sürür. Azərbaycan xalqı bunu yaxşı bilir və eyni zamanda, yaxşı bilir ki, biz bütün təzyiqlərə, bütün hədə-qorxulara, əsassız ittihamlara baxmayaraq bildiyimizi edəcəyik. Necə ki, etmişik, bundan sonra da edəcəyik. Ermənistan rəhbərliyi də bu tarixi dərslərdən nəticə çıxarmalıdır və özünü elə aparmalıdır ki, bizim qəzəbimizə tuş gəlməsin.***

Biz bu il iqtisadi sahədə öz siyasətimizi uğurla aparmışıq. Müstəqil iqtisadiyyat bizə imkan verir ki, heç kimdən asılı olmayaq, heç bir beynəlxalq maliyyə institutundan asılı olmayaq və asılı deyilik.

Biz Ordumuzu böyük dərəcədə gücləndirmişik, həm peşəkarlıq artdı, yeni silahlı birləşmələr yaradıldı və bu silahlı birləşmələr digər silahlı birləşmələrlə birlikdə antiterror əməliyyatında çox böyük peşəkarlıq göstərmişlər. Yeni silahlar, hərbi texnika alındı, gətirildi, bir çox yeni kontraktlar imzalandı. Onu da bildirməliyəm ki, gələn il hərbi təyinatlı yerli istehsal böyük dərəcədə artacaq. Gələn il həm dövlət, həm özəl sektor tərəfindən hərbi təyinatlı məhsulların istehsalına ən azı bir milyard manat sərmayə qoyulacaq. Beləliklə, biz nəinki özümüzü əsas vasitələrlə təmin edəcəyik, Azərbaycan dünya miqyasında çox ciddi ölkəyə çevriləcək, bizim hərbi təyinatlı məhsullarımızın həcmi və sayı böyük dərəcədə artacaq.

Bizim beynəlxalq nüfuzumuz gündən-günə artır. Dekabr ayında dünyanın ən böyük beynəlxalq konfransının Azərbaycanda keçirilməsi haqqında bütün dünya ölkələri yekdil qərar qəbul etmişlər - COP29 gələn il Azərbaycanda keçiriləcək. Bu, bizə dünya ictimaiyyəti tərəfindən göstərilən böyük hörmət və rəğbətdir, eyni zamanda, bizim yaşıl enerjiyə keçidimizə olan böyük qiymətdir. Yaşıl enerji keçidi bizim prioritet məsələmizdir və bu il Azərbaycanda bölgənin ən böyük bərpaolunan elektrik enerjisi stansiyası istifadəyə verilmişdir - 230 meqavat gücündə günəş elektrik stansiyası artıq bizim enerji sistemimizə tam inteqrasiya edilmişdir. ***İmzalanmış kontraktlar və anlaşma memorandumları əsasında yaxın bir neçə il ərzində Azərbaycanda 10 min meqavat bərpaolunan enerji növləri, enerji mənbələri yaradılacaq və bu sahədə də Azərbaycan dünyada liderlər sırasında olacaqdır. Əlbəttə ki, COP29 - iqlim dəyişikliyinə həsr edilmiş bu beynəlxalq konfransın Azərbaycanda keçirilməsi bir daha bu sahədə bizim uğurlarımızı əyani şəkildə göstərir.***

Bu il Azərbaycanda "Heydər Əliyev İli" elan edilmişdir. Ulu Öndərin 100 illiyi ölkə üzrə qeyd edildi. Mən mənim üçün bu əziz günü - atamın doğum gününü Şuşada keçirdim. Şuşanın mərkəzi meydanında Azərbaycan xalqına müraciət edərək öz ürək sözlərimi bildirdim və dedim ki, Ulu Öndərin xatirəsinə ən böyük hörmət əlaməti bizim əməllərimizdir. ***Mən hesab edirəm ki, oktyabrın 15-də Ağdərədə, Əsgəranda, Xocavənddə, Xocalıda, Xankəndidə qaldırdığım Dövlət Bayrağımız Ulu Öndərin xatirəsinə ən böyük hörmətin əlamətidir. Noyabrın 8-də Xankəndinin mərkəzi meydanında Zəfər paradımız Ulu Öndərin xatirəsinə ən böyük hörmətimizin əlamətidir.***

Bu gün bütün dünya azərbaycanlıları haqlı olaraq müstəqil Azərbaycanla fəxr edirlər. Bu gün dünya azərbaycanlıları Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü tam yeni bir ovqatla qeyd edirlər. Artıq üç ildir ki, dünya azərbaycanlıları bütün Azərbaycan xalqı kimi ruh yüksəkliyi ilə yaşayır, başını dik tutub yaşayır, alnıaçıq, üzüağ yaşayırlar.

Tarixi Zəfərimiz - İkinci Qarabağ müharibəsindəki Zəfər, antiterror əməliyyatı, işğalçılardan azad olunmağımız, separatçı rejimin çökməsi bütün azərbaycanlıları haqlı olaraq bir araya, bir yumruq halına gətirir. "Dəmir yumruq" bizim Zəfər salnaməmizin rəmzi idi. Bu gün, eyni zamanda, "Dəmir yumruq" birliyimizin rəmzidir və Azərbaycan xalqını, bütün dünya azərbaycanlılarını əmin etmək istəyirəm ki, "Dəmir yumruq" hər zaman yerində olacaq.

***Əziz bacılar və qardaşlar, sizə cansağlığı, uğurlar arzulayıram. Arzu edirəm ki, 2024-cü il də ölkəmiz üçün, xalqımız üçün uğurlu olsun.***

***Bayramınız mübarək olsun!***

# Füzuli şəhərini içməli su ilə təmin etmək üçün su anbarları inşa edilir

Ötən il mayın 5-də Prezident İlham Əliyev tərəfindən təməli qoyulmuş Füzuli şəhərinin içməli su təchizatı, kanalizasiya və yağış suları sistemlərinin yaradılması layihəsinin birinci mərhələsi icra olunur.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyindən bildirilib ki, qurum tərəfindən icra olunan layihə 2040-cı ilədək perspektiv inkişaf nəzərə alınmaqla Füzuli şəhərində 50 min nəfərin tələbatının ödənilməsinə hesablanıb. İlkin mərhələdə şəhərin xarici su təchizatı sistemlərinin və mərkəzi anbarların tikintisi işləri həyata keçirilir. Füzuli şəhərini dayanıqlı içməli su ilə təmin etmək məqsədilə Zərgər kəndi yaxınlığında ümumi tutumu 20 min kubmetr olan mərkəzi su anbarları inşa edilir. Layihəyə əsasən, Füzuli şəhərinin su mənbəyindən götürülən suyun şəhərə çatdırılmasını təmin etmək üçün 10,7 km uzunluğunda magistral su kəmərinin inşası yekunlaşıb.

Füzuli şəhərini dayanıqlı və keyfiyyətli içməli su ilə təmin etmək məqsədilə növbəti mərhələdə Gövşadlı kəndi yaxınlığında 15 subartezian quyusu qazılacaq. Bu mənbə hesabına Füzuli şəhəri ilə yanaşı, rayonun bir neçə kəndi də içməli su ilə təmin olunacaq.

Layihə çərçivəsində Füzuli şəhərində 103 km içməli, 87 km tullantı və 100 km yağış su şəbəkələri inşa olunacaq. Şəhərdə formalaşacaq tullantı sularının təmizlənib zərərsizləşdirilməsi məqsədilə məhsuldarlığı sutkada 15 min kubmetr olan tullantı sutəmizləyici qurğu tikiləcək. Füzuli şəhərində yaradılan yeni infrastruktur "Ağıllı su" sistemi əsasında idarə olunacaq. Layihə çərçivəsində hər bir infrastruktur elementi SCADA sistemilə təmin ediləcək.

# Zəngəzur dəhlizi 2029-cu ilədək reallaşacaq

"Türkiyə Zəngəzur dəhlizi layihəsinin 2029-cu ilədək həyata keçiriləcəyinə ümid edir".

Bu barədə Türkiyənin nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlu "tvnet" telekanalına müsahibəsində deyib.

"Zəngəzur dəhlizinin Bakıdan Horadizədək olan hissəsi tamamlanmaq üzrədir. Dəhlizin Türkiyə hissəsinin uzunluğu 224 kilometrdir. Onun hazırlıq prosesi beş il çəkəcək. 2028-ci ildə bütün işlərin başa çatacağını düşünürəm", - deyə Abdulkadir Uraloğlu bildirib.

Nazirin sözlərinə görə, dəhlizin Ermənistan ərazisi istisna olmaqla, Horadizdən Ordubadadək olan hissəsində tikinti işləri davam edir.

"Naxçıvanı Türkiyə ilə birləşdirən 100 kilometrlik mövcud yol yenidən qurulmalıdır. Dəhliz İğdır-Qars dəmir yolu ilə davam edəcək. Tender prosedurları artıq başa çatan dəmir yolunun tikintisinə bu il başlanacaq", - deyə Abdulkadir Uraloğlu əlavə edib.

Zəngəzur dəhlizi ilə bağlı İrəvanın mövqeyinə toxunan nazir bu yaxınlarda Nikol Paşinyanın layihəyə müsbət mesajlar verdiyini vurğulayıb: "Zəngəzur dəhlizinin Ermənistan hissəsinin uzunluğu təqribən 43 kilometrdir. İrəvan dəhlizin planlaşdırılma və tender prosedurlarını həyata keçirdikdən sonra o, tam başa çatdırılmış hesab olunacaq. Beləliklə, Türkiyə Türk dünyası və Orta Asiya ölkələrinə birbaşa və asan çıxış əldə edəcək".

Nazir İranın Azərbaycanı Türkiyə ilə birləşdirəcək yolun öz ərazisi ilə tikilməsi təşəbbüsü ilə çıxış etdiyini və Ankara ilə Bakının buna etiraz etmədiyini xatırladıb.

# ARDNF "Şahdəniz" üzrə gəlirləri açıqlayıb



Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) 2023-cü ilin əvvəlindən cari il yanvarın 1-i tarixinədək "Şahdəniz" yatağından (qaz və kondensat) 1 milyard 308 milyon dollar gəlir əldə edib.

AZƏRTAC Azərbaycan Respublikası Dövlət Neft Fondunun yaydığı məlumata istinadla xəbər verir ki, "Şahdəniz" yatağı üzrə gəlirlər 9,4 faiz azalıb.

O cümlədən, "Şahdəniz" yatağı üzrə kondensatın satışından əldə olunan gəlirlər hesabat dövründə 324,396 milyon dollar təşkil edib, bu da əvvəlki il ilə müqayisədə 1,3 faizlik azalma deməkdir.

# Bakının Baş Planının təsdiqi sənədsiz ev problemini kökündən həll edəcək?

Bakının Baş planının təsdiq edilməsi sənədsiz evlərin sənədləşməsi prosesini gündəmə gətirib.

Məsələ ilə bağlı Trend-in suallarını cavablayan daşınmaz əmlak və inşaat üzrə ekspert Elnur Azadov bildirib ki, Baş planın təsdiq edilməsinin sənədsiz evlərə çıxarış verilməsinə ciddi təsiri olmayacaq.

*"Ölkədə qanunsuz tikililər ən çox Bakı və Abşeron yarımadasının payına düşür. Sənədsiz evlər paytaxtın mərkəzi hissələrində deyil, kənar hissələrində yerləşir. Sənədsiz evlərə çıxarış verilməsi üçün qanunda müvafiq dəyişikliklər aparılmalıdır. Hökumət artıq bununla bağlı ilk addımlar atır"*, - o vurğulayıb.

Ekspert qeyd edib ki, paytaxın mərkəzi hissəsinə yaxın sənədsiz evlərin çoxu Keşlə, NZS, Xutor qəsəbələrində və az sayda Yasamal rayonu ərazisindədir.



*"Belə yerlərdəki sənədsiz evlərə gələcəkdə baxış keçiriləcək. Yaşayış təyinatlı torpaqlardırsa, statusu olduğu kimi qalacaq. Torpaqların təyinatı başqadırsa, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq həmin torpaqların təyinatı dəyişdirilməlidir. Qanunla beş ildən bir torpaqların təyinatına baxılmalıdır. Bu qanunda nəzərdə tutulsa da, ancaq baxılmır. Bakının Baş planının təsdiq edilməsindən sonra artıq buna əsas yaranıb"*, - deyə o, əlavə edib.

Qeyd edək ki, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində "Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri"nin İdarə Heyətinin sədri Nigar Alimova bildirmişdi ki, sənədsiz evlərlə bağlı ilkin konsepsiya sənədi hazırlanıb.

# "PAŞA Bank" Azərbaycan Maliyyə Forumunda iştirak edib

Yanvarın 9-da Bakıda "Azərbaycan Maliyyə Forumu: nailiyyətlər və çağırışlar" adlı genişmiqyaslı tədbir keçirilib. Azərbaycan Banklar Assosiasiyası, Azərbaycan Mikromaliyyə Assosiasiyası, Azərbaycan Sığortaçılar Assosiasiyası, Azərbaycan İnvestisiya Şirkətləri Assosiasiyası və Azərbaycan Fond Bazarı İştirakçılarının Assosiasiyası tərəfindən təşkil olunan tədbirdə maliyyə sektorunun, biznes və ictimai təşkilatların rəhbərləri bir araya gəliblər.

Forum çərçivəsində innovativ texnologiyaların tətbiqi ilə rəqəmsallaşmanın sürətləndirilməsi imkanları, bu əsasda ötən dövr ərzində Azərbaycan maliyyə sektorunun əldə etdiyi nailiyyətlər və qarşıda duran çağırışlar müzakirə edilib. Bundan başqa, iqtisadiyyatın inkişafı ilə maliyyə sektorunun potensialının uzlaşdırılması, maliyyə vasitəçiliyinin və maliyyə inklüzivliyinin gücləndirilməsi, bu sahədəki manеələrin aradan qaldırılmasına dair mövzular ətrafında müzakirələr aparılıb.

Tədbirin panel sessiyalarında ümumi bank sektoru üzrə çağırışlar, bankçılıqda 2023-cü il üzrə nailiyyətlər, Fintex sahəsində yeni dövrün gətirdiyi imkanlar, investisiyaların cəlb edilməsinin genişlənməsi, kiçik və orta sahibkarlığın maliyyələşməsində yeni imkanlar və sığorta bazarının inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

Forumda spiker qismində çıxış edən "PAŞA Bank"ın idarə heyəti sədrinin müavini Bəhruz Nağıyev korporativ bankçılıqda əldə olunan nailiyyətlər və bu seqmentin perspektivləri haqqında fikirlərini bölüşüb. O, 2023-cü ildə ölkə iqtisadiyyatında, xüsusilə qeyri-neft sektorunda əldə olunan nailiyyətləri qeyd edərək, onların ümumi korporativ bankçılığın inkişafında rolunu vurğulayıb.

*"2022-ci ildə qeyri-neft sektorunda ÜDM 69 mlrd. manat təşkil edib, lakin 2023-cü ildə bu rəqəm 77 mlrd. manat səviyyəsində gözlənilir. **Bu göstəricinin artmasına fəal inkişaf edən qeyri-neft seqmentlərinin - kənd təsərrüfatı, turizm, tikinti və digər sektorların töhfəsi qeyd edilə bilər. Eyni müddət ərzində ölkədə korporativ və KOS seqmentinə ayrılan biznes kredit portfeli 1,4 mlrd. manat artaraq, mühüm bir rəqəmə - 12,4 mlrd. manata çatıb. PAŞA Bank sistem əhəmiyyətli bank olaraq, bu artımın təqribən 20%-ni təmin edib, bununla da biznes kreditləri portfelinin 300 mln. manat artmasına nail olub"**,* - deyə "PAŞA Bank"ın idarə heyəti sədrinin müavini B.Nağıyev vurğulayıb.

# 2023-cü ildə sığorta yığımları ilk dəfə 1 milyard manatı ötüb

2023-cü ildə Azərbaycanda sığorta yığımları 2022-ci ilin sonuna olan göstərici ilə müqayisədə 28 faiz artım nümayiş etdirərək, ilk dəfə 1 milyard manatı ötüb.

Bunu Azərbaycan Sığortaçılar Assosiasiyasının (ASA) icraçı direktoru Elmar Mirsalayev "Nailiyyətlər və çağırışlar" mövzusunda forumda çıxışında deyib.

***"Azərbaycanın ümumdaxili məhsulunda sığorta sektorunun payı 1 faiz təşkil edib. Sığorta bazarının peşəkar iştirakçıları olaraq bizim əsas məqsəd və vəzifəmiz mövcud, sabit və artan bazarın dayanıqlılığını təmin etməkdən ibarətdir.***

***Mərkəzi Bank tərəfindən sığorta sektorunun inkişafı üçün keçirilən mühüm islahat bizə yaxın illərdə bu məqsədə nail olacağımızla bağlı əminlik verir"***, - deyə o, qeyd edib.

Qeyd edək ki, ASA ümumi maraqlar əsasında birləşmiş, könüllülük, üzvlərin hüquqi bərabərliyi prinsipləri əsasında yaradılan, öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan və əldə edilən gəliri öz üzvləri arasında bölməyən qeyri-hökumət təşkilatıdır.

# 2040-CI İLƏDƏK PAYTAXT NECƏ DƏYİŞƏCƏK?

*Bakının yeni nəqliyyat sistemi formalaşacaq*

Son illərdə Bakıda əhalinin çoxalması, iqtisadi artım nəticəsində bir sıra sahələrdə yaranan problemlər paytaxtın baş planının olmaması ilə əlaqələndirilirdi. Xüsusən də, yol infrastrukturu ilə bağlı məsələlər, şəxsi avtomobillərin artması, ictimai nəqliyyatda mobilliyin təminatının zəif olması ilə əlaqədar yollarda yaranan tıxaclar, avtomobil sıxlığı Bakı sakinlərini ən çox narahat edən məsələlər idi.

Buna görə də dövlət başçısının göstərişinə əsasən, aparıcı, qlobal şəhərsalma prinsipləri nəzərə alınaraq, şəhərin planlı və sistemli inkişafını təmin etmək məqsədilə Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən Bakı şəhərinin Baş planı hazırlandı və Nazirlər Kabineti tərəfindən təsdiq edildi.

Baş plan paytaxtın 212,3 min hektarlıq bütün inzibati ərazisini əhatə etməklə növbəti 20 il ərzində şəhərin əsas inkişaf prioritetlərini özündə əks etdirir.

Bakı şəhəri əhalisinin 2040-cı ilə 3,17 milyon nəfər təşkil edəcəyi proqnozlaşdırılıb. Bu da əlavə çətinliklər yaradacaq. Odur ki, Baş plan sonradan yaranan və yuxarıda sadaladığımız müəyyən problemlərin vaxtında həllini tapmasını şərtləndirir.

Şəhərin küçə-yol şəbəkəsinin genişləndirilməsi, ictimai nəqliyyatın təkmilləşdirilməsi, şaxələndirilməsi, metro nəqliyyat sisteminin inkişafı prioritetlər arasında yer alır. Bu hədəflərin reallaşması üçün Baş planda nəqliyyat məsələləri öz əksini tapıb. Belə ki, hazırda paytaxtın küçə-yol şəbəkəsi əsasən radial-həlqəvi nəqliyyat marşrutları üzrə təşkil edilsə də, gələcəkdə onların diaqonal marşrutlara çevrilməsi ilə məntiqi tamamlandırılması prinsipi əsas götürülərək, paytaxtın yeni nəqliyyat planlaşdırılma sxemi hazırlanıb.

**Daha çox nəqliyyat infrastrukturunun qurulmasına diqqət ayrılıb**

Bakı şəhərinin izahlı Baş planı təqdim olunub. Baş plan Arxitektura Komitəsinin saytında yerləşdirilib və burada paytaxtımızda 2040-cı ilədək görüləcək işlər



öz əksini tapıb.

Qeyd edək ki, neçə müddət idi ki, Bakının Baş planının yubanması ilə bağlı narazılıqlar var idi. Xüsusilə də, bəzi nəqliyyat ekspertləri bildirirdilər ki, bundan sonra Baş plan hətta hazır olsa belə, bunu reallaşdırmaq mümkün olmayacaq, çünki nəzərdə tutulan ərazilərdə çoxmərtəbəli binalar tikilib, bəzi yollar, səkilər tamamilə ləğv edilib, infrastruktur dəyişdirilib.

Nəqliyyat üzrə ekspert Ramil Osmanlı Baş planı şərh edərkən deyib ki, 25 yeni metro stansiyasının tikilməsi, "28 May" metrostansiyasının yenidən qurulması, velosiped, tramvay yollarının çəkilməsi çox gözəldir: *"Təki reallaşsın. Baş plan Bakı şəhərinin 2040-cı ilə qədər inkişafını nəzərdə tutan 2020-2027-ci və 2028-2040-cı illəri əhatə edəcək 2 mərhələni nəzərdə tutur. Qeyd olunacaq müddət ərzində ümumilikdə paytaxtın müxtəlif istiqamətli inkişaf-şəhərsalma konsepsiyası üçün nəzərdə tutulan maliyyə vəsaitinin məbləği 93,5 milyard manatdan bir qədər artıqdır. Həmin məbləğin 33 milyard manatdan çoxu bilavasitə özəl investisiya mənbələri hesabına, qalan 60,5 milyard manatı isə dövlət (büdcə və s.) və dövlət və özəl maliyyə mənbələri hesabına qarşılanacaq.*

*Layihənin icrasına iki qurumun nəzarət edəcəyi sənəddə öz əksini tapır ki, burada da əsas arbitr Şəhərsalma və Arxitektura Komitəsidir. Diqqəti çəkən ikinci qurum İnvestisiya Holdinqinin nəzdində yaradılması nəzərdə tutulan Azərbaycan İnkişaf Korporasiyasıdır. Mənə tam aydın olmayan Bakının Baş planının icrası ilə bağlı nəzərdə tutulan ikinci dərəcəli qurumun bütün ölkə coğrafiyasına hesablanması ilə bağlı olan məqamdır. Nəhayət, burada bir istiqamət - Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən təqdim olunmalı vacib bir sənəd var ki, CİS (Coğrafi İnformasiya Sistemi) adlanır və hələ ki, hazır deyil. Ümid edək ki, xidmət bu sənədi tez bir zamanda ortaya qoysun və bu, layihənin ərazi fəaliyyət planlaması və rayonlar, fərdi torpaq sahələrinin müəyyən olunması üçün çox vacibdir".*

Ekspert əlavə edib ki, Baş planda infrastrukturla bağlı geniş proqramların nəzərdə tutulması, ictimai nəqliyyatın inkişafı, avtomobilləşmənin təşviqi, alternativ enerjiyə diqqətin artırılması, yaşıl və sağlam ətraf mühitin inkişaf etdirilməsi təqdirəlayiqdir: *"Qeyd olunan rəqəmlər reallaşarsa, ümid edirəm ki, 2040-cı ilin Bakısı tamamilə fərqli olacaq. Amma ekosistemin əsas sahələrindən biri olan tikinti sektoru, xüsusilə mənzil tikintisi, deyəsən, prioritetlərdən uzaqlaşıb, ya da başqa şəhərlərə doğru uzanıb. Belə olmasaydı, 2027-ci ildə adambaşına düşən mənzil sahəsi 23,6 kv.m-dən cəmi 1,2 kv.m artımla 2040-cı ildə 24,8-də dayanmazdı.*

*Ən maraqlı və layihənin ilkin mərhələsi üçün nəzərdə tutulan "Ulduz" metrostansiyası ətrafındakı 100 hektarlıq sənaye ərazisinin yenidən qurulması və H.Əliyev Beynəlxalq Hava Limanı yaxınlığında yeni xidmət sahələrinin inkişafı ilə bağlı prioritetlərdir. "Ulduz" tərəfdəki sənaye istiqamətinin içərisində ölkənin inşaat materialları idxalının azaldılması sənəddə xüsusi olaraq qabardılır, amma bunun təqribən 3-4 kilometr ərazidə yaradılacaq 60 hektarlıq Böyükşor ekoloji parkına uyğun olub-olmaması yaddan çıxarılır".*

Nəqliyyat məsələləri üzrə ekspert Aslan Əsədov da mövzu ilə bağlı fikirlərini açıqlayıb: *"Bakının Baş planında görünür ki, nəqliyyat infrastrukturunun qurulmasına və nəqliyyatın daha çox tənzimlənməsinə xüsusi diqqət ayrılıb. Düzdür, burada məskunlaşma ilə bağlı xüsusi qrafik var, 200 min mənzilin yaradılması ilə bağlı plan var. Amma bu məsələnin öz həllini tapması üçün digər nəqliyyat infrastrukturunun, tramvay, trolleybus və digər alternativlərin yaradılması çox vacibdir. Tramvay və trolleybus xətləri Bakı şəhərində əvvəllər də var idi. Burada hər hansı bir küçənin genişləndirilməsi, sırf tramvay və trolleybuslar üçün sonradan yenidənqurma işləri görülməyib. Bu səbəbdən də əvvəl küçələr necə idisə, yenə də olduğu kimi qalır. Orada artıq nəyisə əlavə etməyə ehtiyac da yoxdur. Ümumilikdə isə Baş planın qəbul edilməsi daha vacib elementlərdən sayılır. Necə ki, konstitusiya dövlətin ana qanunudur, Baş plan da şəhərsalma və şəhər üçün qanuni bir prosesdir".*

**Bakı və Sumqayıt şəhərlərini birləşdirən yeni magistral avtomobil yolunun inşası da planlaşdırılıb**



2027-ci ilin sonunadək Bakı və Sumqayıt şəhərlərini birləşdirən yeni magistral avtomobil yolunun inşası da planlaşdırılıb. Bu, Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planında bildirilib.

Qeyd edilib ki, "Bakı-Sumqayıt şosesi"ndə, Xırdalan və "20 Yanvar" dairələrində nəqliyyat sıxlığının qarşısının alınması, Xırdalan şəhərinin alternativ giriş-çıxış yolunun yaradılması məqsədilə M-1 və M-4 avtomobil yollarını Sulutəpə və Xocəsən qəsəbələrindən keçməklə Yasamal rayonu ərazisində "Xarici Dairəvi Yolu" ilə birləşdirən paytaxtın strateji 2-ci şimal-qərb yeni giriş-çıxış yolunun yaradılması planlaşdırılıb.

Baş planda həmçinin, Qaraçuxur və Xırdalana metro tikintisi də nəzərdə tutulub.

# Алиев о совместных проектах с ОАЭ: «Это только первый шаг…»



Сотрудничество Азербайджана и Объединенных Арабских Эмиратов многогранное, охватывает многие сферы, в недавнем прошлом были предприняты очень важные шаги в энергетической сфере, особенно в области зеленой энергии. Об этом сказал президент Азербайджана Ильхам Алиев на встрече с президентом Объединенных Арабских Эмиратов шейхом Мухаммедом бен Заидом Аль Нахайяном в расширенном составе.

Отметив, что в октябре прошлого года в Азербайджане была открыта солнечная электростанция мощностью 230 мегаватт, глава азербайджанского государства сказал: «Создание этой станции стало возможным за счет инвестиций Вашей страны. Это только первый шаг. На основе подписанных контрактов и меморандумов о взаимопонимании в Азербайджане за счет инвестиций Вашей страны планируется производство 10 гигаватт зеленой энергии».

Президент Алиев в своем выступлении напомнил о двух важных документах, подписанных в Баку в прошлом месяце. На основе одного из этих документов, подписанных между Объединенными Арабскими Эмиратами и Азербайджаном, создан Совместный инвестиционный фонд с финансовой возможностью в один миллиард долларов. Второй важный документ касается информационно-коммуникационного сектора.

Подчеркнув, что ОАЭ под руководством шейха Мухаммеда бен Заида Аль Нахайяна добились больших успехов, глава государства выразил уверенность в том, что визит президента ОАЭ в Азербайджан укрепит стратегическое партнерство двух стран, еще больше усилит дружественные, братские отношения между двумя народами. В то же время президент Объединенных Арабских Эмиратов шейх Мухаммед бен Заид Аль Нахайян заявил, что ОАЭ готовы к развитию сотрудничества между двумя странами в различных сферах: «Как Вы отметили, развитие наших отношений находится на начальном этапе. Мы, в свою очередь, мобилизуем свои усилия для дальнейшего укрепления отношений и наведения новых мостов между нашими странами».

## Азербайджан может экспортировать стройматериалы в страны Центральной Азии и РФ

Оживление строительного рынка наблюдается во всей Центральной Азии, странах СНГ.

Об этом сказала генеральный секретарь Ассоциации производителей строительных материалов Азербайджана Шахана Сары.

«Есть много стран, в которые Азербайджан может экспортировать строительные материалы, прежде всего, это страны SPECA. В сентябре мы примем участие в Казахстане в выставке, где будет установлен азербайджанский стенд. Планируем принять участие в аналогичных мероприятиях в Узбекистане, Туркменистане, России. Продолжается систематическая работа по расширению возможностей экспорта и в другие страны», - сказала она.

# Германия призывает Евросоюз усилить поддержку Украины



Канцлер Германии Олаф Шольц призвал страны Евросоюза усилить военную поддержку Украины и заявил, что одних лишь усилий, которые для этого предпринимает Германия, достаточно не будет. Об этом сообщает BBC. Шольц отметил, что страны ЕС отправляют Киеву недостаточно оружия: «Каким бы значительным не был вклад Германии, его не хватит, чтобы обеспечить безопасность Украины в долгосрочной перспективе. Поэтому я призываю наших союзников в ЕС увеличить усилия в отношении Украины. Запланированные поставки оружия Украине из большинства стран - членов Евросоюза недостаточны».

Правительство Германии сообщает, что в 2023 году эта страна направила на военную поддержку Украины 5,4 млрд евро, а в последующие годы объемы помощи должны составить 10,5 млрд евро. 8 млрд из этой суммы поступит в 2024 году, пишет Reuters. В том числе ФРГ отправила Киеву танки Leopard-2, бронированные машины Marder, артиллерийские снаряды и несколько систем ПВО, включая IRIS-T, Patriot и Skynex.

# За пост президента Азербайджана будут бороться семь кандидатов



Центральная избирательная комиссия зарегистрировала кандидатуры еще четырех человек на пост президента Азербайджана.

Решение об этом было принято сегодня на заседании ЦИК.

Так, зарегистрированы кандидатуры Фазиля Мустафы - от партии «Великое созидание», Эльшада Мусаева - от партии «Великий Азербайджан», Гудрата Гасангулиева - от Партии единого народного фронта Азербайджана и Фуада Алиева, самовыдвижение которого было подтверждено ранее.

До этого ЦИК зарегистрировал кандидатуры Ильхама Алиева, Захида Оруджа и Рази Нуруллаева. Процесс регистрации завершен. Таким образом, число зарегистрированных кандидатов в президенты Азербайджана достигло семи человек. Напомним, внеочередные президентские выборы в Азербайджане пройдут 7 февраля 2024 года.

# Микаил Джаббаров провел встречу с первым вице-президентом ЕБРР

Управляющий Европейского банка реконструкции и развития (ЕБРР) от Азербайджана, министр экономики Микаил Джаббаров провел встречу в онлайн-формате с первым вице-президентом банка Юргеном Ригтеринком.

Об этом сообщили Trend во вторник в министерстве экономики Азербайджана.

На встрече были рассмотрены проекты, реализуемые в Азербайджане при поддержке банка, перспективы сотрудничества с ЗАО «Азербайджанское Каспийское морское пароходство», возможности расширения совместной деятельности сторон в области возобновляемых источников энергии, совершенствования экосистемы информационных технологий.

Министр экономики подчеркнул, что Азербайджан придает особое значение развитию отношений с банком, а также применению передового опыта и инновационных технологий в реализуемых совместно с ЕБРР проектах, отметил важность обсуждения с ЕБРР приоритетных проектов в сфере энергетики, особенно возобновляемой и альтернативной, проекта Центра обработки данных «Правительственное облако» (G-Cloud), а также по другим направлениям.

Юрген Ригтеринк отметил, что портфель сотрудничества охватывает важные вопросы, а глобально значимые инициативы Азербайджана развивают партнерство.

Первый вице-президент ЕБРР подчеркнул значимость того, что Азербайджан выбран местом проведения в текущем году 29-й сессии Конференции сторон Рамочной конвенции ООН по изменению климата (COP29) и выразил готовность банка оказать поддержку нашей стране в этом направлении.

# Для снабжения города Физули питьевой водой строятся водохранилища

Реализуется первый этап проекта по созданию в городе Физули комплекса систем питьевого водоснабжения, канализации и отвода дождевых вод, фундамент которого 5 мая прошлого года заложил Президент Ильхам Алиев. Реализуемый Государственном агентством водных ресурсов Азербайджана проект рассчитан на удовлетворение потребностей 50 тысяч человек в городе Физули с учетом перспективного развития до 2040 года, сообщает Trend со ссылкой на Координационный штаб, созданный для централизованного решения вопросов на освобожденных от оккупации территориях Азербайджанской Республики.

На начальном этапе ведется строительство систем внешнего водоснабжения города и центральных водохранилищ. В целях обеспечения города Физули постоянной питьевой водой возле села Зергер строятся центральные водохранилища общей емкостью 20 тысяч кубометров. В соответствии с проектом завершено строительство магистрального водопровода протяженностью 10,7 км для обеспечения доставки в город воды, забираемой из водного источника города Физули.

На очередном этапе с целью обеспечения города Физули постоянной и качественной питьевой водой возле села Говшадлы будут пробурены 15 субартезианских скважин. За счет этого источника питьевой водой, наряду с городом Физули, будут также обеспечены несколько сел района.

# Возможен рост заболеваемости COVID-19

После новогодних праздников возможен рост в статистике заражений COVID-19, сказала руководитель департамента развития медицинских услуг TƏBİB Ягут Гараева.

«Было семь нерабочих дней, и вполне возможно, что после праздников будет отмечен рост в статистике заражений. Это может быть связано с тем, что население не обращалось в медучреждения в праздничные дни, кроме того, не все медучреждения работали в обычном режиме, и в связи с этим возможен рост в статистике заражений», - сказала Гараева.

Говоря о заболеваемости коронавирусом в мире, Гараева заметила, что часть населения перенесла заболевание COVID-19 не один, а по нескольку раз, большинство вакцинированы: «В любом случае иммунная система людей распознает этот вирус. Хотя передача вируса ускоряется, его тяжелое течение может наблюдаться только в группах риска. Высокая скорость распространения вируса клинически не может привести к тому, что он будет более агрессивен в будущем. Скорее, это будет менее распространенное заболевание с более легким клиническим течением».

# Ötən il dünyada ərzaq qiymətləri 14% ucuzlaşıb



2023-cü ildə dünyada ərzaq qiymətləri 13.7 faiz, dekabr ayında isə illik ifadədə 10.1 faiz ucuzlaşıb.

Bu barədə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) icmalında deyilir.

Dekabrda taxılın qiymət indeksi noyabr ayı ilə müqayisədə 16.6 faiz yüksək olsa da, əvvəlki illə müqayisədə aşağı düşüb. 2023-cü ilin sonunda hava şəraiti və Qara dəniz regionunda gərginlik səbəbindən bir sıra əsas ixracatçı ölkələrin logistik sistemlərində yaranan problemlər, həmçinin güclü tələbat fonunda buğdanın ixrac qiymətlərində artım qeydə alınıb. Həmçinin dekabrda bitki yağı 1.4 faiz (illik ifadədə 32.7 faiz), ət isə 1 faiz (illik ifadədə 1.8 faiz) ucuzlaşıb. İlin sonunda şəkərin qiyməti 16.6 faiz azalsa da, illik ifadədə artım 14.9 faiz olub. Eyni zamanda, süd məhsullarının qiymətində 1.6 faizlik artım, illik ifadədə isə 16.1 faizlik azalma baş verib.

# “Qəzzada münaqişə sona çatmalıdır”



ABŞ Dövlət katibi Antoni Blinken bəyan edib ki, İsrail-ərəb münasibətlərinin normallaşması Qəzzada münaqişəyə son qoyulması və Fələstin dövlətinin qurulması üçün əlverişli yol tələb edir.

“ABC News”un məlumatına görə, Blinken Yaxın Şərq səfəri çərçivəsində İsrailə getməzdən əvvəl hava limanında açıqlamalar verib.

Yaxın Şərq səfərinə işarə edən Blinkenin sözlərinə görə, görüşlərdə məqsədi Qəzzanın sabitləşməsinə və canlandırılmasına kömək etməkdir.

ABŞ Dövlət katibi Türkiyə və Yunanıstandan sonra regional turu çərçivəsində BƏƏ, İordaniya və Qətərə gedib.

# Çin avtomobil ixracında dünya liderinə çevrilib

Çin Avtomobil İstehsalçıları Birliyinin məlumatına görə, 2023-cü ildə Çin avtomobillərinin ixracı rekord həddə — 5,26 milyon ədədə çatıb.

AZƏRTAC bu barədə “The Street Journal” nəşrinə istinadla xəbər verir.

Nəşrin məlumatına əsasən, bu rəqəm xaricə avtomobil tədarükü üzrə ənənəvi lider olan Yaponiyanın ixrac göstəricisindən təxminən 1 milyon çoxdur.

Yüksək göstəricinin əsas hərəkətverici qüvvəsi Rusiyanın Çin avtomobil istehsalçılarının ixracını 2022-ci illə müqayisədə ən azı 5 dəfə - 800 min ədədə qədər artıran tələbatıdır. Sanksiyalar və geosiyasi gərginlik fonunda, Çin istehsalçıları bazardan getmək məcburiyyətində qalan Qərb rəqiblərinin yerini tutublar.

"Keçən il “Chery” 900 mindən çox avtomobili xaricə göndərməklə, Çində ən böyük avtomobil ixracatçısına çevrilib. Bu göstərici “Tesla” və ya “BYD” şirkətlərindəkindən daha yüksəkdir”, – deyə Çin Avtomobil İstehsalçıları Birliyinin baş katibi Tsuy Dunşu bildirib.

Rusiyada “Chery” ilə yanaşı, “Geely”, “Great Wall” və digər brendlərin də satışları artıb. Lakin baş katibin dediyinə görə, ixracın bu cür sürətlə artmasının davam etməsi ehtimalı azdır, çünki tələbat böyük dərəcədə ödənilib və anbarlardakı ehtiyatlar kifayət qədərdir.

Ümumilikdə, 2023-cü ildə Çində avtomobil və ticarət avtomobillərinin satışları 25,5 milyona yüksəlib. Ənənəvi daxili yanma mühərrikləri ilə yanaşı, elektrikli nəqliyyat vasitələrinin ixracı da artmaqdadır. Məsələn, Çində “BYD” şirkəti xarici satışları təxminən 5 dəfə artırıb və bu rəqəm 242 minə yüksəlib. Şirkət 2024-cü ildə Avropadakı iştirakını fəal şəkildə artırmağı planlaşdırır.

Çin uzun müddət dünyanın ən böyük bazarı və istehsal mərkəzi olsa da, indiyədək ixrac artımı məhz xarici konsernlər tərəfindən təmin edilib.

Son üç ildə yerli brendlər elektrikli avtomobillərə və hibridlərə dövlət dəstəyi sayəsində irəliləyişə nail olublar. İndi isə Çin Yaponiya, Almaniya və Cənubi Koreyanı qabaqlayaraq, əsas dünya ixracatçısı adını qazanmağa müvəffəq olub.

# Mərkəzi Gömrük Hospitalının Fizioterapiya və tibbi reabilitasiya şöbəsində müalicə müasir fizioterapiyanın ən yeni metodları vasitəsi ilə həyata keçirilir



Mərkəzi Gömrük Hospitalının ən müasir avadanlıqlarla təchiz edilmiş Fizioterapiya və tibbi reabilitasiya şöbəsində yüksəkixtisaslı tibb personalı yeni müalicə metodları ilə fizioterapevtik prosedurları təqdim edir. Şöbədə sinir sistemi, Parkinson xəstəliyi, üz iflicinin, beyin və onurğa beyni zədələrinin, bel, boyun, çiyin nahiyəsində ağrılar, yırtıq, insult, skolioz, uşaqlarda lordoz, bütün növ əzələ xəstəliklərinin, sümük xəstəliklərinin, nevroloji, yaşa bağlı ortopedik xəstəliklərin müalicəsi uğurla həyata keçirilir.

Dünyanın bir sıra aparıcı ölkələrində tibbi təhsil almış şöbənin yüksəkixtisaslı tibb personalı tərəfindən ultrasəs, kombinə elektroterapiyası, elektroforez, endopress, elektrostimulyasiya, qısa dalğa, lazer, traksiya, maqnitoterapiya, balneoterapiya, osteopatiya, tibbi masaj, manual terapiya, detoksikasiya, biorezonans, limfodrenaj və zərbə dalğa terapiyası kimi prosedurlar icra edilir.

Fizioterapiya və tibbi reabilitasiya şöbəsinin peşəkar tibb personalı hər bir xəstəyə fərdi yanaşır. Onların məqsədi müalicədən sonra xəstəliyin növündən və dərəcəsindən asılı olaraq istənilən nəticəni əldə etməkdir.

Müasir dünyada ən çox yayılan xəstəliklərdən biri də onurğa sütununun əyilməsi ilə əlaqədar olan skolioz xəstəliyidir. Bu xəstəlik həm erkən yaşlarda, həm də oturaq həyat tərzi keçirən gənc və yaşlı insanlarda dayaq hərəkət sistemində, onurğa sütununda problemlər yaradır. Fizioterapiya şöbəsində skoliozun dərəcəsi imkan verirsə, mümkün qədər əməliyyatsız müalicə edilir. Əsas müalicə üsulu Avropada, ABŞ-da, İsrail və digər ölkələrdə geniş istifadə olunan alman mütəxəssisi Katarina Schroth tərəfindən hazırlanmış Schroth üsulu ilə müalicədir. Bu müalicə metodunda 3D idman hərəkətlərindən, xüsusi tənəffüs texnikasından istifadə edilir.

Müalicədən əvvəl həkimlər hərtərəfli müayinələr aparır, müasir diaqnostik avadanlıqların köməyi ilə pasiyentin xəstəliyinin düzgün diaqnozu və qiymətləndirilməsi qısa bir müddətdə həyata keçirilir.

Müalicə prosedurları pasiyentləri ağrılardan xilas etməklə yanaşı, ağrıya səbəb olan amilləri də aradan qaldırır. Cərrahi müdaxilə tələb edən xəstəliklərdə ağrıkəsicilərə ehtiyac azalır, hərəkətlilik artır, terapevtik yaxşılaşma müşahidə olunur, hərəkət pozğunluqları, əzələ və sümük zəifliyi, insult sonrası pozğunluqlar və beyin zədələri fiziki müalicə ilə aradan qaldırılır.

Mərkəzi Gömrük Hospitalının Fizioterapiya şöbəsində aparılan müalicələr klinik protokollara uyğun kompleks şəkildə, müasir fizioterapiyanın ən yeni metodları vasitəsi ilə həyata keçirilir.

**Dilarə Zamanova, Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

# “Volkswagen” yeni modellərində süni intellekt proqramı tətbiq edir

Almaniyanın “Volkswagen” konserni istehsal etdiyi yeni avtomobillərdə “ChatGPT” süni intellekt proqramını tətbiq edir.

AZƏRTAC “Bloomberg” telekanalına istinadla xəbər verir ki, alman şirkəti İstehlakçı Elektronikası Sərgisində (CES) yeni IDA səsli assistenti ilə təchiz edilmiş “Tiguan”, “Passat”, “Golf” avtomobillərində süni intellekt dəstəyi olan çat robotu tətbiq etdiyini bəyan edib. “Volkswagen”in sözçüsü bildirib ki, 2024-cü ilin ikinci yarısından etibarən bütün yeni modellər bu tətbiqlə buraxılacaq. “ChatGPT”, həmçinin şirkətin ID markalı dörd elektromobilində də quraşdırılacaq.

Almaniyanın digər avtomobil nəhəngi – “Mercedes” də IDA səsli naviqasiya nəzarəti sistemindən və süni intellekt tətbiqindən istifadə edəcək. Sonuncunu alman şirkətlərinə “Cerence” süni intellekt proqramları kompaniyası təqdim edir.

Hazırda “Volkswagen” süni intellekt tətbiqini ən çox təqdim edən şirkətdir. Alman konserni bildirib ki, “ChatGPT” sayəsində sürücülər bir çox məsələlər barədə suallar verəcək və cavablar ala biləcəklər.



# Avropada təbii qaz ucuzlaşıb

Yanvarın 8-də keçirilən hərracların bağlanışında Avropada qazın 1 000 kubmetrinin qiyməti 360 ABŞ dollarından aşağı enib.

8 yanvar tarixində TTF (Niderlandın “Title Transfer Facility”i Avropanın ən likvid virtual satış mərkəzi) indeksi üzrə fevral fyuçerslərinin qiyməti 358.9 dollar təşkil edib, bu da önceki hesablama qiyməti (399.5 dollar) ilə müqayisədə 8.1% azdır.

Qeyd edək ki, 2020-ci ilin dekabrın 31-dən Trans-Adriatik boru kəməri (TAP) vasitəsilə Avropaya Azərbaycan qazının nəqlinə başlanılıb.

# 2023-cü il rəsmən bütün müşahidələr tarixində ən isti il elan olundu



Meteoroloqlar təsdiqləyiblər ki, 2023-cü il rəsmi olaraq 1850-ci ildən bəri bütün müşahidələr tarixində ən isti il olub. Orta illik temperatur sənaye dövründən əvvəlki səviyyədən 1,48 dərəcə yüksək olub, bəşəriyyət Paris sazişində qeyd olunan iki həddən birində olub, onlardan sonra isə alimlər iqlim dəyişikliyinin Yer kürəsindəki həyat üçün fəlakətli nəticələrini proqnozlaşdırır.

AZƏRTAC “BBC”-yə istinadla xəbər verir ki, Avropa İttifaqı yanında Kopernik İqlim Mərkəzinin tədqiqatçıları bu gün illik iqlim icmalı dərc ediblər. Sənəddə deyilir ki, 2023-cü il 2016-cı ildəki əvvəlki rekordu böyük fərqlə üstələyib.

***“2023-cü ildə bütün müşahidələr tarixində ilk dəfə olaraq il ərzində hər gün 1850–1900-cü illərin sənaye dövründən əvvəlki səviyyəsini 1C dərəcə üstələyib. Praktiki olaraq hər ikinci gün 1850–1900-cü illərə nisbətən 1,5C dərəcədən çox isti idi, noyabr ayındakı iki gün isə ilk dəfə olaraq 2C dərəcəlik həddi keçib”,*** - deyə icmalda qeyd olunur.

Hələ 2015-ci ildə Parisdə BMT-nin İqlim Dəyişmələri Konfransında demək olar ki, dünyanın bütün ölkələri bu əsrdə qlobal temperaturun artımını sənaye dövründən əvvəlki səviyyədən 2C dərəcə çərçivəsində məhdudlaşdırmaq və ideal olaraq 1,5C dərəcəyə çatdırmamaq barədə razılığa gəliblər. Paris sazişinin məqsədlərinə nail olmaq getdikcə çətinləşir. Son doqquz il tarixdə ən isti olub, üstəlik ciddi fərqlə.

***“2023-cü il müstəsna il olub. İqlim rekordları bir-birini əvəzləyib. Görünür, bu il son 100 min ilin ən isti ili olub”,*** - deyə Kopernik Mərkəzinin rəhbərlərindən biri olan Samanta Berces vurğulayıb.

Qeyri-adi 2023-cü ilin iki əsas səbəbi: insan fəaliyyətinin səbəb olduğu qlobal istiləşmə və Sakit okean səthinin istiləşməsi fenomeni olan El-Ninyo.

Kopernik Mərkəzinin məlumatlarına əsasən, dəniz səthinin orta qlobal temperaturu ötən il əksər okean hövzələrində, xüsusilə Şimali Atlantikada sabit və qeyri-adi dərəcədə yüksək qalıb, bu da qlobal temperaturların ümumilikdə artmasında mühüm rol oynayıb.

Okean iqlim üçün əsas əhəmiyyət kəsb edir, çünki Yer kürəsinin səthinin 70 faizindən çox hissəsini əhatə edir və son onilliklərin qlobal istiləşməsinin 90 faizini udub. Cəmi bir neçə on metr dərinlikdə bütün Yer atmosferində olduğu qədər istilik saxlanılır.

Okean nə qədər isti olarsa, enerjini udmaq və bütövlükdə planetdə temperatur artımını hamarlamaq qabiliyyəti o qədər aşağı olur. Burada yaxşı bir məqam yoxdur: “NASA”-nın məlumatına görə, son on ildə suyun temperaturu ən azı 200 il ərzində rekord həddə çatıb.

2023-cü ilin iyun-dekabr aylarında hər ay ötən illərin istənilən müvafiq ayına nisbətən daha isti olub. Yeni il rahatlıq gətirmədi. 2023-cü ilin dekabr ayı dünyada bütün müşahidələr tarixində ən isti dekabr ayı olub.

# Susan səsin üçün hələ çox darıxacağıq...

***1980-ci illərin sonunda el şənliklərində, bir qədər sonra isə professional səhnədə bir yeniyetmə qız öz nadir səsi, fərqli geyimi və gözəl ifa tərzi ilə insanları valeh etmişdi. Bu qız sonradan bütün xalqın sevimlisinə çevrilən Aygün Hümmətova (sonradan "Bəylər" təxəllüsünü götürmüşdü) idi...***



Aygün Aydın qızı Hümmətova 22 avqust 1975-ci ildə Bakının Suraxanı qəsəbəsində çoxuşaqlı ailədə anadan olub.

İlk musiqi təhsilini Səttar Bəhlulzadə adına mədəniyyət sarayının musiqi məktəbində nağara sinfi üzrə almışdı.

1988-ci ildə yaradılan Azərbaycan Dövlət Uşaq Filarmoniyası elə həmin ildə istedadlı uşaqların müsabiqə yolu ilə filarmoniyaya qəbulunu keçirir və 13 yaşlı Aygün filarmoniyaya qəbul edilir. Professional səhnəyə ilk gəlişi də elə bu dövrə təsadüf edir. Filarmoniyanın uşaq musiqi kollektivləri ilə böyük səhnələrdə ilk çıxışlar, xarici ölkələrə, müxtəlif şəhər və regionlara qastrol səfərləri bu zamandan başlayır.

Onu da qeyd etmək lazımdır ki, Aygünün el şənliklərində ifa etməsi ailəsində birmənalı qarşılanmayıb, xüsusilə atası buna qarşı çıxıb. Aygün Hümmətova isə atasının ciddi etirazlarına baxmayaraq, müğənni olmaq istəyindən əl çəkməyib və sənət aləmində irəliləməyə nail olub.

1995-ci ildə Aygün Hümmətova Şövkət Ələkbərova adına ilk peşəkar musiqi kollektivini yaradaraq, geniş konsert fəaliyyətinə başlayır – televiziya, radio, böyük dövlət tədbirləri, həmçinin ardıcıl şəkildə xaricdə Azərbaycan musiqi sənətini təmsil edir.

1998-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının xanəndəlik fakültəsinə daxil olan Aygün Hümmətovanın sənət taleyində yeni səhifə açılır. Görkəmli sənətkarlar - Arif Babayev, İslam Rzayev, Ağaxan Abdullayev, Elxan Müzəffərov, eləcə də Alim Qasımovdan muğamın incəliklərini öyrənir.

***2002-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin imzası ilə "Əməkdar artist" fəxri adına layiq görülür.***

2005-ci ildə Özbəkistanın Səmərqənd şəhərində keçirilən beynəlxalq folklor festivalında folk-muğam triosunun müşayiəti ilə çıxış edən Aygun Hümmətova Azərbaycan muğam məktəbini uğurla təmsil edir və birinci yerə layiq görülərək, festivalın qalibi olur.

Bu dövrdən başlayaraq, 2005-2010-cu illərdə Aygün Hümmətova dünyanın bir çox ölkələrində: Fransa, İspaniya, Mərakeş, ABŞ, İngiltərə, Rusiya, Türkiyə, Yunanıstan, Hollandiya, Almaniya, Cənubi Koreya, İsveç, Danimarka və digər ölkələrdə keçirilən musiqi festivallarının daimi iştirakçısı kimi solo konsertlərlə çıxışlar edir və Azərbaycan musiqi mədəniyyətini layiqincə təmsil edir.

2012-ci ildə Aygün Azərbaycan dövlət musiqi Akademiyasının yeni açılan simfonik dirijorluq və bəstəkarlıq fakültəsinə daxil olur. 2013-cü ildən etibarən Azad Azərbaycan telekanalı ilə müştərək olaraq, "Yenə o bağ olaydı" adlı müəllif proqramı ilə efirə çıxır. Bu proqramda Aygünün amalı özünün bugünkü musiqi ilə bağlı düşüncələrini, duyumunu, bu sənətin böyük dühalarının yaratdığı sənət nümunələrinə söykənərək, yeni bir dünyagörüşünü təqdim etmək idi.

Əməkdar artist **"Tut ağacım", "Sən ruhumun qida yerisən", "Küsmə gəl", "Qəlbimin səsi", "Özün günahkarsan"** mahnıları ilə məşhurluq qazanıb. Ancaq ona ən böyük uğuru **"Tut ağacım"** mahnısı gətirib.

Aygün Bəylər son vaxtlar xərçəng xəstəliyindən əziyyət çəkirdi. Əməkdar artistin səhhəti ilə əlaqədar məsələ ötən müddət ərzində Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən Fond tərəfindən nəzarətə götürülmüşdü və müalicəsinə zəruri dəstək göstərilirdi.

Müalicəsinə yerli həkimlərlə yanaşı, xarici mütəxəssislərin də cəlb olunduğu Aygün Bəylər bir müddət əvvəl müvafiq müayinələrdən keçmək məqsədilə Türkiyəyə getmişdi. Lakin həkimlərin səylərinə baxmayaraq, Aygün Bəylərin səhhətində ağırlaşma baş verdi və müğənninin həyatını xilas etmək mümkün olmadı.

Aygün Bəylər 6 yanvar 2024-cü il tarixində Ankarada gözlərini dünyaya əbədi yumdu...

Müsahibələrinin birində demişdi: ***"Təkcə sənət vəfalı çıxdı. Yəqin, mən də vəfalı olmuşam, o qarşılıq verib. Ayağım büdrəsə də, yıxılsam da, qalxdım".***



Amma bu dəfə qalxa bilmədi.

Mərhum sənətkarla vida mərasimində Xalq artistləri Mənsum İbrahimov, Aygün Səmədzadə, Həmidə Ömərova, Əməkdar incəsənət xadimi Aqil Məlikov, Əməkdar mədəniyyət işçisi Ədalət Dəlidağlı, Əməkdar artist Rəşad İlyasov, bəstəkar-pianoçu Pikə Axundova və başqaları çıxış edərək, Aygün Bəylərin Azərbaycan musiqisinə sonsuz sevgisindən, milli musiqi irsimizin yaşadılması və gələcək nəsillərə çatdırılması üçün gördüyü böyük işlərdən danışaraq, onunla bağlı xatirələrini bölüşüblər.

* * * *

*"Aygün Bəylərin vaxtsız vəfatı Azərbaycan mədəniyyəti üçün çox ağır itkidir. Gözəl, unikal səsi, özünəməxsus ifası ilə başqa ifaçılardan seçilirdi. Xatirimdədir, "Tut ağacım" mahnısının klipi bizim bağda çəkilirdi. Çəkilişdən sonra çay süfrəsi arxasında oturduq, xeyli söhbət etdik. Onun Azərbaycan musiqisindən məlumatlılığı, muğamı əla bilməsi, musiqi duyumu, musiqi savadı məni heyran etmişdi.*

*Amansız ölüm onu bizdən tez ayırdı. Aygün Bəylərin əziz xatirəsi hər birimizin qəlbində yaşayacaq. Böyük səhnələrdə, efirlərdə onun yeri hələ çox görünəcək..."*

**Milli Məclisin deputatı,**
**akademik Ziyad Səmədzadə**

* * * *

*"Mərhum sənətkar Aygün Bəylərin vaxtsız dünyadan köçməsi mədəniyyətimiz üçün çox ağır itkidir. Bizim onunla çox yaxşı münasibətimiz olub. Mənim bir neçə mahnımı ifa edib. Məni bəzən tanımayanlara **"Tut ağacım"ın bəstəkarıyam"** deyirəm. Aygün bizi heç vaxt darda qoymazdı. Onu konservatoriyadan tanıyıram. Tələbə idi, mən də o vaxtlar konservatoriyada dərs deyirdim. İstər mahnı yaradıcılığından məlumatlılığı, istərsə də fortepianoda ifası baxımından çox savadlı musiqiçi idi. Bunu hər çıxışı ilə təsdiq edirdi.*

*Mən çox xoşbəxtəm ki, bizim işbirliyimizin nəticələri çox gözəl olub. Son dəfə konsertindən əvvəl **"Tut ağacım"** mahnısı ilə bağlı danışmışdıq. Bu mahnını yəhudi musiqiçiləri yəhudi dilinə çevirmişdilər və biz düşünürdük ki, Aygünlə onların bərabər ifalarını reallaşdıraq. Ancaq xəstəliyi buna imkan vermədi...*



*Azərbaycan musiqisi itirdi. Azərbaycan mahnısı itirdi. Azərbaycan bəstəkarları itirdi. Aygün Bəyləri itirdi...*

*Mən bütün Aygün Bəyləri sevənlərə - Azərbaycan musiqisini sevənlərə başsağlığı verirəm. Aygün Bəylər haqqında çox danışa bilərəm, amma hazırda çətindir. Onun yerini heç kəs tutmayacaq".*

**Xalq artisti, bəstəkar**
**Aygün Səmədzadə**

* * * *

Bu yazını Aygün Bəylərin sevə-sevə oxuduğu **"Bağışlaram səni"** mahnısının (musiqisi Kamalın, sözləri Baba Vəziroğlunundur) sözləri ilə bitirmək istərdik:

***"Sən olmasan, sənli xatirələr qalır***
***Bu dünya sevdirir, ayrılıq salır.***
***Haçan dönsən onu bil, bağışlaram səni...".***

**Bağışla bizi, Aygün!** Bağışla ki, ola bilər, amansız xəstəliklə mübarizə aparanda yanında olmamışıq, ola bilər, son konsertindən zövq alanda ağrıkəsicilərin köməyi ilə oxuduğunu duymamışıq, lazımi qədər alqışlamamışıq. Çünki heç ağlımıza da gəlməzdi ki, bu gözəl səs bir gün susacaq. ***Özü də əbədi...***

# İfaçılıq sahəsində öz dəsti-xətti olan sənətkar

***Azərbaycan mədəniyyətinə ağır itki üz verib. Əməkdar artist, tanınmış qarmon ifaçısı Gülbahar Şükürlü 5 yanvar 2024-cü il tarixində vəfat edib. Gülbahar Şükürlü 20 mart 1962-ci ildə Bakı şəhərində anadan olub.***



Orta məktəbi bitirdikdən sonra 4 nömrəli İncəsənət Gimnaziyasına daxil olaraq təhsilini orada davam etdirib.

16 yaşından qarmon sənəti ilə məşğul olan Gülbahar xanım uzun müddət Azərbaycan Respublikasının Xalq artistləri - Mələkxanım Əyyubova, Səkinə İsmayılova və Əməkdar artist Zöhrə Abdullayeva ilə birgə çalışıb.

1993-cü ildə Zöhrə Abdullayevanın təkidi ilə efirə çıxaraq, Azərbaycan Dövlət Televiziyasında 30 dəqiqəlik solo konsertlə çıxış edib və böyük tamaşaçı kütləsinin sevgisini qazanıb. Sonra davamlı olaraq Azərbaycan Dövlət Televiziyasında digər verilişlərə dəvət alaraq, solo çıxışlar edib.

Gənc yaşlarından musiqiçinin bəstələdiyi "Aytac" rəqsi və eyniadlı ilk albomu (1998) ona böyük uğur gətirib. Sonrakı illərdə "Rusif", "Ləman", "Rəvanə" rəqslərini yaradıb, dörd albomu işıq üzü görüb.

Özünəməxsus ifası ilə musiqisevərlərin rəğbətini qazanan Gülbahar Şükürlü dəfələrlə beynəlxalq sənət layihələrində ölkəmizi təmsil edib.

Dövlət başçısının müvafiq sərəncamı ilə mədəniyyət sahəsində xidmətlərinə görə 2009-cu ildə "Azərbaycan Respublikasının Əməkdar artisti" fəxri adına layiq görülüb.

O, uzun müddətdir xərçəng xəstəliyindən əziyyət çəkirdi.

Müsahibələrindən birində demişdi: ***"1993-cü ildən bəri sənətdəyəm. Bu illər ərzində Azərbaycanda və onun hüdudlarından kənarda tanınmağa nail olmuşamsa, bu, böyük uğurdur. Sənətçi üçün sevilmək çox böyük qazancdır. Əməkdar artist kimi fəxri ada layiq görüldüm. Bu da illərimin qazancına yazılan böyük şərəfdir".***

Gülbahar xanımın öz yolu, öz cığırı vardı sənətdə. Hər kəsin özünəməxsus ifası var. Bütün qarmon ifaçılarına hörmətlə yanaşır, onların ifalarını dinləyirdi. Heç vaxt heç kimə bənzəmək istəməmişdi. Deyirdi ki, sənətçinin üzünü görmədən belə ifasını eşidərkən əgər onu tanıyırlarsa, deməli, o, nəyəsə nail olub.

Ən böyük arzusu övladlarını xoşbəxt, sağlam görmək idi.

İfaçılıq sahəsində öz dəsti-xətti olan sənətkar yaratdığı musiqi parçaları ilə milyonların qəlbini fəth edib.

Tanınmış musiqiçi, gözəl insan Gülbahar Şükürlünün əziz xatirəsi onu tanıyanların, həmkarlarının qəlbində əbədi yaşayacaqdır.

*"İqtisadiyyat" qəzeti*




**Azəri Light və Brent markalı neftin bir barelinin 3 – 10 yanvar tarixlərində satış qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert: Maqsud Quliyev**

## ALLAH RƏHMƏT ELƏSİN

Milli Məclisin deputatı, akademik Ziyad Səmədzadə
Milli Məclisin deputatı Elman Nəsirova
**ANASININ**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Akademik Ziyad Səmədzadə Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun "İnklüziv sosial inkişaf" şöbəsinin müdiri, i.e.d. Rəsmiyyə Abdullayevaya
**BACISI OĞLUNUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağılığı verir.

Professor Elşən Hacızadə Milli Məclisin deputatı Elman Nəsirova
**ANASININ**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun kollektivi "İnklüziv sosial inkişaf" şöbəsinin müdiri, i.e.d. Rəsmiyyə Abdullayevaya
**BACISI OĞLUNUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağılığı verir.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev**

**www.iqtisadiyyat.com**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq:**
**+99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**